Qaydalar və Şərtlər

1. “Aztelekom” MMC-nin rəsmi veb səhifəsi üzərindən göndərdiyiniz müraciət Müraciətçi ilə Cəmiyyət arasında olan müqavilənin imzalanması xarakterini daşıyır.
2. Müraciətçi tərəfindən forma təsdiq edildikdən sonra müraciət dərhal müvafiq Rabitə xidmətləri mərkəzinə yönləndirilir.
3. Düzgün qaydada doldurulduğu halda təqdim olunan müraciət formasına “Aztelekom” MMC tərəfindən ərazidən asılı olaraq 3-7 iş günü ərzində baxılır və Müraciətçi ilə əlaqə saxlanılır.
4. Müraciət texniki araşdırma əsasında cavablandırılır. Cəmiyyət hər bir müraciətə müsbət və mənfi cavablandırma hüququnu özündə saxlayır.
5. Tələb olunan xidmətlərin göstərilməsinə texniki imkan olmadıqda müraciət mənfi qiymətləndirilir və bu barədə müraciət edənə məlumat verilir.
6. Müraciət mənfi qiymətləndirildiyində Müraciətçi ilə əlaqə saxlanılır və mümkün olduğu halda alternativ xidmətlər təklif olunur.
7. Müraciət müsbət qiymətləndirildikdə vətəndaşla əlaqə saxlanılıb, ödəniş etməsi üçün unikal şifrə təqdim olunur. Müraciətçi tərəfindən 3 iş günü ərzində ödəniş olmadığı halda müraciət ləğv olunur.
8. Müraciətin icrası haqqında məlumatı Müraciətçi Cəmiyyətin Çağrı mərkəzinə (170) zəng edərək əldə edə bilər.
9. “Aztelekom” MMC müraciətlərdə olan məlumatları üçüncü şəxsə ötürməmək öhdəliyini üzərinə götürür.
10. Müraciətçi daxil edilən məlumatların, o cümlədən şəxsiyyət vəsiqəsi məlumatlarının düzgün olması ilə bağlı şəxsən məsuliyyət daşıyır.

AZTELEKOM